# "Dünya İnvestisiya Hesabatı - 2025": Azərbaycan etibarlı və strateji investisiya mərkəzidir

**Dünya təcrübəsindən məlumdur ki, hər bir ölkənin iqtisadi inkişafında önəmli rol oynayan şərtlərdən biri də investisiya qoyuluşudur. Xüsusən xarici investisiyaların cəlb olunması ölkənin daxili maliyyə resurslarına qənaət etməyə və ya ondan digər sahələrdə istifadə etməyə imkan yaradır. O üzdən Azərbaycanda aparılan iqtisadi islahatların əsas hədəflərindən biri də ölkəyə daha çox xarici kapital cəlb etməkdir.**

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) İqtisadi təhlil şöbəsinin baş məsləhətçisi Rəşad Nəcəfli bildirir ki, Dünya İnvestisiya Hesabatı 2025-də Azərbaycan etibarlı və strateji investisiya mərkəz kimi tanınır. O, bunu Birləşmiş Millətlər Təşkilatının Ticarət və İnkişaf Konfransı (UNCTAD) tərəfindən dərc olunan "Dünya İnvestisiya Hesabatı - 2025"i şərh edərkən deyib. Həmin hesabatda Azərbaycan regionun etibarlı və strateji investisiya məkanı kimi təqdim edilib.

UNCTAD tərəfindən dərc olunan bu sənəd qlobal investisiya axınlarının son meyillərini, çağırışlarını və perspektivlərini əks etdirən ən nüfuzlu mənbələrdən biridir. Hesabat həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələr üzrə birbaşa xarici investisiya (BXİ) statistikalarını, eləcə də "greenfield" layihələri və sektorlar üzrə tendensiyaları təqdim edir. Sənəd xüsusilə dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələrin investisiya mühitinə dair mühüm nəticələr ortaya qoyur və regional müqayisələr üçün əsas istinad nöqtəsi hesab olunur.

Hesabata əsasən, 2020-2024-cü illərdə Azərbaycan 1,5 milyard ABŞ dollarından artıq məbləğdə "greenfield" tipli - yeni sıfırdan qurulan yeni istehsal və infrastruktur layihələrinə yönələn investisiya cəlb edib. Azərbaycan Özbəkistan və Qazaxıstanla yanaşı, dənizə çıxışı olmayan ölkələr arasında aparıcı investisiya məkanlarından birinə çevrilib. Bu nailiyyət Azərbaycanın xüsusən enerji və nəqliyyat infrastrukturu sahələrinə ardıcıl strateji



layihələri cəlb etmək bacarığını nümayiş etdirir.

Rəşad Nəcəfli qeyd edib ki, Azərbaycan beynəlxalq investorları cəlb edən dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələrin sırasında nəqliyyatla bağlı layihələrdə də ön sıralarda yer alıb və bu, ölkənin Asiyanı Avropa ilə birləşdirən Orta dəhlizin mərkəzində yerləşən strateji Avrasiya logistika qovşağı rolunu təsdiqləyir: "Hesabatda bildirilir ki, dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələrin 2024-cü ildə qlobal investisiya axınları 10 faiz azalaraq 23 milyard dollar təşkil edib. Bu ölkələrin bir çoxu kəskin volatilliklə üzləşib. Məsələn, Qazaxıstan 3,7 milyard dollar həcmində investisiya daxilolmalarından 2,6 milyard dollar həcmində xalis kapital çıxışına qədər dramatik bir dönüş yaşayıb. Belə mürəkkəb şəraitdə Azərbaycan ardıcıl olaraq müsbət kapital daxilolmaları və layihə aktivliyini saxlayıb, sabitlik nümayiş etdirərək investorların davamlı etimadını təmin edib".

Hesabatda qeyd olunur ki, Azərbaycan 2024-cü ildə 253 milyon dollar həcmində birbaşa xarici investisiya cəlb edib. Bu nailiyyətlər Azərbaycanın dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələr arasında dayanıqlı mövqeyini göstərir. Ölkəmiz enerji və nəqliyyat dəhlizlərinin regional mərkəzi kimi qlobal investisiya durğunluğu şəraitində belə, "greenfield" və infrastruktur layihələri üçün cəlbedicidir.

Rəşad Nəcəfli uzunmüddətli tendensiyalara toxunaraq bildirib ki, Azərbaycanın ümumi BXİ daxili ehtiyatı 2024-cü ildə 27,5 milyard dollara çatıb və bu, 2000-ci ildən bəri 15 dəfədən çox artım deməkdir. "Bu, Azərbaycanı dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələr arasında aparıcı mövqeyə çıxarır və onu Ermənistanın 7,8 milyard, həmçinin Özbəkistanın 16,7 milyard dollarlıq göstəricilərindən daha üstün pilləyə qaldırır".

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

Azərbaycan.-2025.- 2 oktyabr (№211).- S.5.